**UOT 82**

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏTBUATININ İNKİŞAFI VƏ SATİRİK JURNALLAR

**Tuğçe ACAR***

*Məqalə redaksiyaya daxil olmuşdur: 14 yanvar 2023; çapa qəbul edilmişdir: 23 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.*

*Received: 14th of January 2023; accepted: 23th of February 2023; published online: 30th of March 2023.*

**Açar sözlər**: *Azərbaycan, mətbuat, milli, satira, jurnal*

## Giriş

Azərbaycan publisistikasının tarixi maarifçilik dövrü ilə sıx şəkildə bağlı idi. Çar Rusiyasının Azərbaycanı işğalı dövründən etibarən Rus maarifçiliyinin Azərbaycana təsiri Azərbaycanda mətbuatın inkişafına gətirib çıxardı. “XIX əsrin ortalarından başlayaraq, dünyada baş verən proseslər, Rusiya imperiyasının daxilindəki hadisələr Azərbaycandan da yan ötmədi. İmperiya daxilindəki xalqların həyatında milli-mənəvi oyanış prosesi baş qaldırdı. Rusiya və İran tərəfindən iki dəfə parçalanan Azərbaycanda Abbasqulu Ağa Bakıxanov, M.F.Axundov, H.Zərdabi, Səid və Cəlal Ünsizadə qardaşları, M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə.Ağaoğlu, S.M.Qənizadə kimi ziyalılar xalqın milli mövcudluğunu hifz etməyə çalışdı” (1, s. 5). Peşəkar publisistlərin formalaşması Qafqazda dövri mətbuatın çıxmağa başladığı XIX əsrə təsadüf edir. Bu dövrün ilk publisisti Abbasqulu ağa Bakıxanov olub. Belə ki, o, 1832-ci ildə “Tiflis bülleteni”nin rus dilində nəşrinə başlayıb. Daha sonra isə rəsmi hökumət nəşri olan “Tiflis xəbəri”nin Azərbaycan versiyasının redaktorlarından və aparıcı müəlliflərindən biri olub. Bakıxanov 1846 və 1848-ci illərdə Tiflisdə çıxan “Qafqaz” qəzetində “Gülistani-İrəm” (“Cənnət çiçəyi”) tarixi traktatından parçalar dərc etdirmişdir (2, s. 192-195).

## 1. Azərbaycan maarifçiliyinin inkişafında jurnalıstikanın rolu

Azərbaycan maarifçiliyinin təməli qoyanlardan biri kimi, Mirzə Fətəli Axundzadə də şübhəsiz ki, XIX əsrin ən böyük publisistlərindən idi. Axundzadə eyni zamanda Azərbaycan dramaturgiyasının banisi, “Aldanmış kəvakib” adlı ilk realistik povestin, eləcə də “Kəmalüddövlə məktubları” adlı fəlsəfi-siyasi traktatın müəllifidir. Onun jurnalistikasında “ictimai-siyasi inkişaf məsələləri – feodal quruluşunun, despotik dövlət quruluşunun tənqidi, ictimai həyatın demokratik əsaslarla yenidən qurulması kimi ictimai tələblər öz əksini tapır. Axundov öz əsərlərində ilk növbədə zəhmətkeşlərin yoxsulluğunu və hüquqsuzluğunu, feodalların qəddarlığını və özbaşınalığını nümayiş etdirdi” (4, s. 93).

Uzun müddət Tiflis şəhəri Cənubi Qafqazın inzibati və mədəni mərkəzi olmuşdur. Bu isə özlüyündə Azərbaycan mədəniyyətinin bütün sahələrinə öz təsirini göstərir, Tiflisdə rus dilində çap olunan qəzetlərdə Azərbaycanın iqtisadi və mədəni həyatında baş verən hadisələr öz əksini tapırdı. XIX əsrin 20-ci illərinin əvvəllərindən “Tiflis vedomosti”, “Zaqafqaziya bülleteni”, “Qafqaz”, “Yeni icmal” qəzetlərində Azərbaycan xalqının ədəbi həyatından bəhs edən məqalələr dərc olunurdu. Təbii ki, bunun əsl səbəbi Azərbaycanın şimalının Çar Rusiyasının nəzarətində olması ilə bağlı idi. Belə ki, mövcud hakimiyyət

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: tgceacr.2@gmail.com

işğalçılıq siyasətini həyata keçirmək üçün mətbuat vasitəsini ideya propaqandası kimi istifadə edirdi. Belə mətbuat orqanlarından biri kimi, "Tiflisskiye vedomosti" adlı mətbuat orqanı da Rusiya tərəfdən Tiflisdə yaradılmışdı. Bu qəzet 1828-ci ildən fəaliyyətə başladı. Sözügedən qəzetdə Azərbaycanla bağlı materiallar dərc olunmaqda idi. "Abbasabad mühasirəsinin tarixi", "Müasir tarix” kimi məqalələr də bu qəbildən sayıla bilər. Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında", "Qarabağ əyalətinə tarixi baxış", "Car və Balakən vilayətlərinə səyahət" başlığı ilə çap olunan məqalələrin məqsədi Azərbaycana çar Rusiyasının yeni baxışından irəli gəlirdi. Qəzetdə Azərbaycanla bağlı yayımlanan məqalələrdə xalqımızın folkloru, eləcə də ümumilikdə ədəbiyyat tariximiz haqqında məlumatlar öz əksini tapırdı. Sözü gedən qəzetdə Abbasqulu ağa Bakıxanovun bir çox tərcümələri dərc edilirdi. Abbasqulu ağanın "Dərbəndnamə"ni tərcümə edərək, “Tiflissikiye vedomisti”də çap etməsi ilə bağlı qəzetdə yazılırdı: "Lazımi mənbələrin tərcüməsi Qafqazın bu tərəfinin tarixini yeni dünyaya yayır". "Tiflisskiye vedomosti' qəzetinin dili Çar Rusiyasının əsarətdə saxladığı üç xalqın dilində idi: gürcü, erməni və Azərbaycan xalqlarının dillərində nəşr edilən qəzet 1829-cu ildə gürcü, 1930-cu ildə erməni və nəhayət, 1832-ci ildə Azərbaycan dilində əlavələrlə buraxılamağa başladı. Azərbaycan dilində "Tiflis əxbarı" adlandırılan qəzet nüsxəsi, təəssüf ki, müasir dövrümüzə qədər gəlib çıxmamışdır. Bu nüsxələrlə bağlı yalnız arxivlərdə məlumatlar qalmışdır. Mətbuat tariximizin ilk illərinə təsadüf edən "Tiflis əxbarı" qəzetinin oxucu sayı olduqca az idi. Abunəçi sayının azlığından şikayət edən Quba komendantı Gimbut 1832-ci ildə verdiyi məlumata görə qəzetin yalnız 30 abunəçisi olduğunu qeyd edirdi. “Tiflis əxbarı”nın ilk sayı Azərbaycan türkcəsində 1832-ci ilin yanvarında işıq üzü görmüşdü. Qəzetin proqramını özündə ehtiva edən sənədlərin birində deyilir: "Bu il yanvarın 1-dən Tiflisdə aşağıdakı şərtlərlə tatar dilində (Azərbaycan dilində – red.) qəzet buraxılacaqdır: 1. Qəzet həftədə bir dəfə çıxacaqdır. 2. Rusca nəşrində olduğu kimi tatar qəzetinin də illik abunə haqqı gümüş pulla 8 manat, yarım illik isə 5 manatdır. 3.Nömrələrin vaxtında çıxmasına və abunəçilərə müntəzəm çatdırılmasına nəzarət qəzetin baş redaktoru, saray müşaviri Sankovskiyə tapşırıldı. Qəzet almaq istəyənlər ona ya şəxsən, ya da yerli hökumət vasitəsilə müraciət edə bilərdilər (3, s. 5). XIX əsrin II yarısında Azərbaycanın iqtisadi və sosial inkişafı baxımdan da milli mətbuatın yaradılması zəruri idi. Azərbaycan xalqının ictimai-siyasi fikrində böyük dəyişiklik 1875-1877-ci illərdə baş verdi. Belə ki, Moskva Universitetinin məzunu Həsən bəy Zərdabi olan ilk ümumi xalq qəzeti olan “Əkinçi” (“Şumçu”) qəzetini Bakıda çıxarmağa başlayır.

Görkəmli maarifçi Həsən bəy Zərdabi bunu dərk edərək, Rusiya hökumətinə üz tutdu və belə bir qəzetin nəşrinə böyük çətinliklə icazə aldı. Onun istehsalına başlamaq üçün o, İstanbuldan xüsusi ərəb tipoqrafik növünü gətirməli idi. Nəhayət, 1875-ci il iyulun 22-də ona Bakı qubernatorunun mətbəəsində “Əkinçi” qəzetinin ilk nömrəsini çap etdirməyə icazə verilir. Bununla da Azərbaycan milli mətbuatının əsası qoyuldu. 1875-ci il iyulun 22-dən 1877-ci il sentyabrın 29-dək nəşr olunan “Əkinçi” qəzeti ümumilikdə 56 dəfə nəşr olunub. Ayda iki dəfə 300-400 nüsxə tirajla çap olunurdu. Əfsanəvi “Kaspi” qəzeti isə 1881-ci ildən nəşr olunur. 1897-ci ildə onu tanınmış Azərbaycan neftçisi və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev alıb, görkəmli publisist və siyasətçi Əlimərdan bəy Topçubaşı baş redaktor təyin edir. Azərbaycan ziyalılarının görkəmli nümayəndələri-Həsən bəy Zərdabi, Məmmədağa Şahtaxtinski, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ceyhun Hacıbəyli, Nəriman Nərimanov qəzetlə əməkdaşlıq etmişlər. Qəzetin 1907-ci ilə qədər Q.Zərdabinin imzası ilə 300-dən çox nömrəsi işıq üzü görmüşdür. 20-ci əsrin ilk Azərbaycan qəzeti isə Məmmədtağı Şahtaxtinskinin nəşr etdirdiyi “Şərqi-rus” olub. Qəzet ilk dəfə 1903-cü il martın 30-da nəşr olunub. Əvvəlcə həftədə üç dəfə nəşr olunan qəzet 1904-cü il iyunun 8-dən gündəlik nəşr olunmağa başladı. Məhz “Şərqi-rus” qəzeti ötən əsrin ilk Azərbaycan qəzeti olmaqla yanaşı, həm də ilk gündəlik qəzeti olaraq tarixə

keçdi. “1903-cü ildə "Şərqi-rus"un fəaliyyətə başlaması, ətrafına demokratik dünyagörüşlü qələm sahiblərini, məxsusi olaraq Cəlil Məmmədquluzadəni, Ömər Faiq Nemanzadəni, M.Ə.Sabiri, A.Səhhəti, F.Köçərlini ətrafına cəm etməklə dövrün yeni jurnalist nəslini yetişdirdi, "Molla Nəsrəddin"in intişarına müəyyən hazırlıq işləri gördü. “Həyat”ın, "İrşad"ın, “Füyuzat”ın nəşri milli ideologiyanın, dövlətçilik təfəkkürünün formalaşmasına, insan hüquqlarının qorunmasına, azad sözün inkişafına xidmət etdi. "Türkləşmək, islamlaşmaq, avropalaşmaq” şüarını əsas ideya-siyasi istiqamətləri kimi qəbul edən, Avropanın inkişaf qanunlarını cəmiyyətə aşılayan bu tip mətbu nümunələr ideya şəklində olan Azərbaycan Xalq Cümhuriyyətinin timsalında dövlət quruluşunun siyasi, fəlsəfi cizgilərini yaratdılar” (3, s.7).

1883-cü ildən etibarən isə Cəlal Ünsizadənin “Kəşkül” jurnalı nəşr olunmağa başladığı vaxtdan Azərbaycanda jurnalistikanın yaranmasına zəmin yaratdı. Lakin onun sürətli inkişafı mərhələsi XX əsrin əvvəllərinə düşür. 1918-ci ildə Bakıda erməni daşnaklarının təşkil etdiyi qanlı soyqırımlar zamanı “Kaspi” qəzetinin Nikolayevskaya (indiki İstiqlaliyyət) küçəsində, (Sabir meydanı) xalqın müdafiəsi ilə bağlı mətbuat konfransı keçirilir. 20-ci əsrin ilk Azərbaycan qəzeti isə Məmmədtağı Şahtaxtinskinin nəşr etdirdiyi “Şərqi-rus” olub. Qəzet ilk dəfə 1903-cü il martın 30-da nəşr olunub.

"Molla Nəsrəddin" (1906), "Fiyuzat" ("Yaxşı", 1906), "Dirilik" ("Canlılıq", 1914) jurnallarının nəşri ilə jurnalistikanın inkişafında yeni keyfiyyət mərhələsi başlayır. Bu jurnallarda cəmiyyəti narahat edən ictimai-siyasi problemlər sistemli-sistemli, hərtərəfli və dərindən təhlil edilirdi.

Bu dövrdə mətbuat məlumatlandırma və təbliğat forması kimi fəaliyyət göstərilməklə yanaşı, həm də informasiyanın tədqiqi və təhlili üsulları, onun auditoriyaya çatdırılması formaları, ictimai-siyasi hadisələrin sənədlərinin əks etdirilməsi, onların fundamental milli ideyalar və bədii-emosional inkişaf etdirilməsi məslələrinə də xüsusi diqqət ayırırdı.

**2. Satirik jurnalların tarixi inkişafı**

Bu jurnallar sırasında ən öndə gedəni “Molla Nəsrəddin” jurnalı idi. Jurnalın ilk nömrəsi 1906-cı il aprelin 7-də 1000 nüsxə tirajla nəşr olundu. Xalqın böyük marağına səbəb olan “Molla Nəsrəddin”in ünü tezliklə bütün ölkəyə yayılır. Geniş kütlənin tələbatına cavab vermək üçün jurnalın 2-ci sayı 2000 tirajla işıq üzü gördü. Jurnalda C.Məmmədquluzadə senzorun çapına qadağa qoyduğu rəsm yerlərini boş saxlayırdı. Lakin xalqın tələbinin qarşısını ala bilmədi üçün sonralar həmin hissəyə “Bizdən asılı olmayan səbəblərdən ağ qaldı” yazısını qeyd edirdi. Təbii ki, “Molla Nəsrəddin”in cəsarətli çıxışları diqqətdən kənarda qala bilməzdi və iş 1907-ci il iyunun 8-də Tiflis general-qubernatorunun jurnalın bağlanması haqqında göstəriş verməsi ilə yekunlaşdı. Bu hadisə böyük rezonans doğurdu. Nəşri bərpa etmək tələbi ilə ümumilikdə bütün Qafqaz daxil olmaqla Bakıdan və Şəkidən də Tiflisə general – qubernatorluğuna məktublar gəlirdi. İyulun 25-də qısa fasilədən sonra jurnalın 23-cü nömrəsi işıq üzü görüb. 1908-1909-cu illərdə bir neçə dəfə “Molla Nəsrəddin” jurnalının bağlanmasına cəhd edildi.

1920-ci ildə C.Məmmədquluzadə ailəsi ilə birlikdə Cənubi Azərbaycana köçür və 1921-ci ilin fevralında bu jurnalı Təbrizdə nəşr etməyə başlayır. Orada “Molla Nəsrəddin”in səkkiz nömrəsi çap olunub. Sovet hökumətinin təşəbbüsü ilə 1922-ci ilin noyabrında nəşr Bakıya köçürüldü və 1931-ci ilə qədər jurnal Azərbaycanda nəşr olundu. Onun son nömrəsi 7 yanvar 1931-ci il tarixlində nəşr olunur. Ən əsası isə Azərbaycanda jurnalist təfəkkürü keyfiyyət, analitika və araşdırma jurnalistikası kimi yeni komponentlərlə tamamlandı. “Molla Nəsrəddin” jurnalının jurnalistika tarixinə, ümumiyyətlə, jurnalistika aləminə gəlişini səciyyələndirən AMEA-nın müxbir üzvü, professor Tofiq Hacıyevin jurnalın fəaliyyəti ilə bağlı fikirlərindən birində yazır: “Molla Nəsrəddin” dünya satirik sənətini və onun nəzəri əsaslarını zənginləşdirən qüsursuz ədəbi məktəb səviyyəsində qalmamış, fəlsəfi

dünyagörüşünə, maarif məşəlinə çevrilmişdir. O, hər şeyi görən bir gözə çevrildi və xalq dili əyləncəli bir dilə çevrilərək xalqın ruhuna nüfuz etdi, ürəklərə yuva saldı, beyinləri işıqlandırdı. O bu dünyanı zarafat kimi qəbul etmirdi, gülə-gülə ağlına gələn hər şeyi dilə gətirirdi... (5). “Molla Nəsrəddin” satirik publisistikanın yaradıcılarının fəaliyyəti sayəsində Azərbaycanda jurnalistikanın və ictimai proseslərə tənqidi fikirlərin güclənməsinə səbəb olub. Mollanəsrəddinçilərin publisistik axtarışlarının nəticəsi kimi “Arı”, “Bəhlul”, “Zənbur”, “Məzəli”, “Babayi-Əmir” kimi yeni satirik jurnallar meydana çıxdı. Azərbaycanda “Yağmur”, “Şeypur” kimi jurnallar ölkədə baş verənlərə tənqidi münasibət mühiti yarada bilmişlər.

XX əsrin əvvəllərində jurnal satirasının mütərəqqi ənənələri o qədər güclü idi ki, hətta sovet dövründə də Azərbaycan ədəbiyyatı və publisistikası neqativ sosial hadisələrə satirik münasibət ruhunu mümkün qədər qoruyub saxlaya bilmişdir. Bu jurnalların xələfi hesab olunan 60-cı illərin komediyaları və “Kirpi” satirik jurnalının materialları buna bariz nümunədir. 1960-cı illərdən başlayaraq, Sovet İttifaqında yaşayan xalqların, o cümlədən Azərbaycanlıların ədəbiyyat və mədəniyyətində milli dəyərlərə maraq yenidən canlanmış, “milli mənlik şüuru güclənmiş, xalqın müstəqillik ruhu qarşısı alınmaz arzuya çevrilmişdir, bu da öz növbəsində sovet senzurasının kəskinləşməsinə səbəb oldu.

### 3. Azərbaycanda XIX əsrin sonu-XX əsrin əvvəllərində nəşr edilən bəzi satirik jurnallar

Azərbaycan satira ənənələrinin inkişafına öz nəşri ilə təkan vərmiş “Molla Nəsrəddin” jurnalı milli mətbuat tarixində satirik jurnalistikanın da əsasını qoymuşdur. (4, s. 3) "Bəhlül" (1907) satirik jurnalı “Molla Nəsrəddin” jurnalından sonra Bakıda çıxan ikinci satirik jurnal idi (9, s. 8). Jurnal Azərbaycan dilində nəşr olunub. Ə.Əliyevin redaktorluğu ilə çıxan “Bəhlül” jurnalı 1907-ci ildə cəmi doqquz nömrəsini buraxmışdır. Jurnalda məşhur rəssamlar R.Qirş, Y.Qamberq, S.Cəbibəyov və başqalarının müxtəlif mövzularda çoxsaylı karikaturaları dərc olunub. (8)

"Zənbur" məcmuəsi 1909-1910-cu illərdə Bakıda "Molla Nəsrəddin" jurnalının təsiri ilə nəşr edilən həftəlik satira jurnalı idi. Jurnalda Azərbaycan teatrına, səhnə sənəti ustalarına, o cümlədən Üzeyir Hacıbəyliyə qarşı haqlı-haqsız hücumlar edilirdi. Maraqlıdır ki, Üzeyir Hacıbəyli "Zənbur" jurnalı haqqında rəy yazmış ("Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşübdür! Nifrət, nifrət olsun müqəddəs qələmi qərəzi-şəxsi aləti edənlərə, nifrət!"), həm də mətbuatda "Zənburçu"lara açıq məktubla çıxış etmişdi (10).

"Mirat" ("Güzgü") həftəlik satirik jurnalı 1910-cu ildə Bakıda Azərbaycan dilində nəşr olunmağa başladı. Jurnalda siyasi və məişət mövzularında karikaturalar, eləcə də satirik rəsmlər dərc olunurdu.

"Arı": 1910-1911-ci illərdə həftəlik satirik "Arı" jurnalı nəşr olunurdu. Ardınca 1912-1913-cü illərdə Bakıda Azərbaycan dilində “Kəlniyyət” satirik jurnalı da nəşr edilmişdir. Jurnalın redaktoru Q.Qasımov, naşiri isə Sadiq Kazımoğlu idi. (7)

"Babayi-Əmir" jurnalı 1915-ci il 21 apreldən 1916-cı il 17 oktyabradək Bakıda nəşr olunub. Jurnalın redaktoru Əlabbas Müznib, naşiri onun qardaşı Əbülfəz Mütəlliboğlu olub. Cəmi 65 nömrəsi çapdan çıxıb. "Babayi-Əmir" jurnalının nəşrinə "Molla Nəsrəddin" jurnalının böyük təsiri olmuşdu. 26-31-ci nömrələri üçün Əzim Əzimzadə rəngli rəsmlər çəkmişdi. (26-cı nömrəsinədək jurnal rəngsiz çap olunurdu. "Babayi-Əmir"in əməkdaşları arasında M.S.Ordubadi, Əli Nəzmi, Seyid Hüseyn, Ə.Vahid, B.Abbaszadə (Hambal), H.İ.Qasımov və başqaları vardı. Sələfi "Molla Nəsrəddin" jurnalı kimi, "Babayi-Əmir"də də felyeton, satirik şeir və s. janrlardan istifadə edilirdi. "Babayi-Əmir"in səhifələrində mədəniyyət məsələləri, dini fanatizm əleyhinə mübarizə və sair mövzularda yazılara, rəsmlərə geniş yer verilirdi. Yazıları, əsasən, şeirlərdən ibarət idi. "Zərərli istiqamətinə görə" "Babayi-Əmir" jurnalının nəşri dayandırılmışdı (10).

Sovet dövründə 60-cı illərədək "Babayi-Əmir" jurnalı və onun redaktoru Ə.Müznibin yaradıcılığı ilə bağlı tədqiqatlar aparılmamışdır və bunun əsas səbəbi redaktorun repressiyaya məruz qalması idi. Bu jurnallar ilə bağlı aparılan tədqiqatlar 60-cı ildən sonra daha fəal olaraq araşdırılmağa başlanılmışdır. (1, s. 13)

"Hətərən-Pətərən" satirik jurnalı isə 1918-ci ildə Tiflis şəhərində Azərbaycan dilində nəşr olunurdu. Çox ağır siyasi şəraitdə çıxan bu jurnalın redaktoru A.Qarayev, rəssamı isə tanınmış Mollanəsrəddinçi O.Şmerlinq idi. Jurnalda dərc olunan karikaturalarda, əsasən, zəhmətkeş xalqa, fəhlə sinfinə dəstək verilirdi.

Artıq qeyd etdiyimiz kimi, "Zənbur" satirik jurnalı 1919-cu ildən 1920-ci ilə qədər Bakıda nəşr olunmuşdu. Həftəlik jurnalın redaksiya heyəti Türk Nəşriyyat Cəmiyyətinin nümayəndələrindən ibarət idi. (7)

"Məşəl" satirik jurnalı 1919-1920-ci illərdə Bakıda Azərbaycan dilində nəşr olunub. Çox çətin siyasi şəraitdə nəşr olunan "Məşəl" fəhlə-kəndli hərəkatını dəstəkləyirdi. 8 səhifəlik, ağ-qara rəngdə çıxan satirik jurnalda, əsasən, siyasi mövzularda məqalə, satirik şeir və felyetonlar dərc olunurdu (7).

"Milli mətbuat tariximizin keçdiyi yolu araşdıran, onun ümumi mənzərəsini canlandırmağa çalışmaq təşəbbüsü ilə qələmə sarılanlar da mətbuat və ədəbiyyat xadimləri olmuşlar. F.Köçərli, Ə.Ağayev, M.Şahtaxtlı, M.B.Məhəmmədzadə və başqaları bu qəbildəndir. Azərbaycan mətbuatının inkişaf yolu və nəzəri məsələlərinə dair görkəmli alimlərimizdən Ə.Şərif, Ə.Mirəhmədov, N.Axundov, M.Məmmədov, Ş.Hüseynov, M.İbrahimov, Ş.Qurbanov, A.Zeynalzadə, İ.Həbibbəyli, Ş.Vəliyev və b. qiymətli elmi əsərlər, monoqrafiya və kitablar nəşr etdirmişlər" (5, s. 7)

Bu jurnallar Azərbaycan müasir ictimai fikrinin formalaşmasında, xalqın maariflənməsində və yeni dünyaya inteqrasiya olunmasında xüsusi rol oynadılar.

## Nəticə

Apardığımız təhlillərdən aydın olur ki, Şərqdə ilk sayılan Azərbaycan jurnalıstikasının tarixi zəngindir və Azərbaycan mətbuatının sonrakı inkişafında mühüm rol oynamışdır. Xüsusən "Molla Nəsrəddin" jurnalı ilə təməli qoyulan satirik jurnallar, dövrünün siyasi, ictimai hadisələrini satirik yolla işiqlandıraraq xalqı cəhalətdən qurtarmağa çalışmışdır. Bütün təqiblərə rəğmən Azərbaycanın görkəmli ziyalıları Azərbaycanın maariflənməsi yolunda əllərindən gələni əsrigəməmiş, Azərbaycanın savadlı gələcəyi naminə ciddi işlər görmüşlər.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***

1. Ağabəyova G. "Babayi-Əmir" jurnalı və onun Azərbaycan satirasında mövqeyi. Bakı, 2008.
2. Axundov N. Azərbaycan dövri mətbuatı (1832-1920). Biblioqrafiya. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1965, 174 s.
3. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 427 s.
4. Namazova S. "Molla Nəsrəddin" jurnalı və Gəncə ədəbi mühiti. Bakı: Elm və Təhsil, 2018.
5. Vəliyev A. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və təhsil, 2009. 296 s.

***Rus dilində:***

6. Азимова А. Азербайджанская журнальная публицистика: истоки и пути дальнейшего развития // Молодой ученый, 2011, №3 (26), т. 2, с. 192-195.
7. Байрам Г. Сатирические журналы Азербайджана 1906-1920 годов // Большая Энциклопедия (https://ourbaku.com/index)
8. http://anl.az/down/meqale/az_konqress/2014/oktyabr/400605.htm
9. Денисенко Е.П. (Минск). Сатирическая журналистика периода 1905-1908 гг. (по фондам центральной научной библиотеки им. я. коласа нацональной академии наук Беларуси, библиотеки российской академии наук в Санкт-Петербурге (chrome-

extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/http://library.basnet.by/bitstream/csl/753/3/Denisenko_2016_B20-21Nr8547.pdf)
10. Azərbaycanın satira jurnalları: dünəndən bu günə (http://anl.az/down/meqale/xalqcebhesi/2014/sentyabr/392335.htm)

***Резюме***

***Тугче Аджар***

***Развитие Азербайджанской печати и сатирических журналов в конце XIX – начале XX века***

История азербайджанской журналистики начала развиваться с конца 19 века до начала 20 века. Этот процесс, впервые был заложен Бакихановым, Дальнейшее развитие журналистики продолжил М.Ф Ахундов. Одним из нюансов, вытекающих из требований Российской империи, являлся то, издание публицистики должен был опубликован на русском языке. Со временем Азербайджанская публиситика изменило свое направление, и в Азербайджане стала формироваться пресса на нашем национальном языке. Первым образцом национальной печати в Азербайджане стала газета Г.Зардаби «Акинчи». После этого некоторые журналы начали опубликовать статьи политической направленности. В этот период пресс-служба использовалась не только как форма информирования и пропаганды, но формы ее доведения до аудитории. В статьях так же анализировали общественно-политические событии, и их основные национальные идеи. В частности, этот период запомнилась с формированием сатиры как одного из направлений азербайджанского реализма. Среди этих журналов певым вестником был сатирический журнал «Молла Насреддин». После этого были запущены многие сатирические журналы, такие как «Ары», «Мазали», «Хатаран патаран» и другие. Самое главное, журналистское мышление в Азербайджане дополнилось новыми компонентами, такими как качество, аналитика и журналистское расследование. Те, кто исследовал путь истории нашей национальной печати и выступил с инициативой оживить ее общую картину, были также деятелями печати и литературы. К ним относятся Ф.Кочерли, А.Агаев, М.Шахтахтли, М.Б.Магомедзаде и др.

***Ключевые слова:*** *Азербайджан, пресса, национальный, сатира, журнал*

***Summary***

***Tugche Adjar***

***Development of Azerbaijanian Print and Satirical Magazines in the End of XIX – Early XX Centuries***

The history of Azerbaijani journalism began to develop from the end of the 19th century to the beginning of the 20th century. This process, which was first founded by Bakikhanov, M.F. It was further developed by Akhundov. One of the nuances arising from the demands of the Russian Empire is that in the early days, the publication of journalism mostly in Russian changed its direction over time, and the press began to be formed in our national language in Azerbaijan. The first example of a national press in Azerbaijan was established by H.Zarbabi's "Akinchi" newspaper. After that, many politically oriented magazines started to operate. During this period, the press service was used not only as a form of information and propaganda, but also methods of research and analysis of information, forms of its delivery to the audience, methods of documenting social and political events, and their fundamental national ideas and artistic-emotional development were developed.

In particular, this period gained momentum with the formation of satire as one of the directions of Azerbaijani realism. Among these firsts, of course, the starting point was "Molla Nasreddin" magazine. After that, many satirical magazines like "Arı", "Mazali", "Hataran Pataran" and so on. Most importantly, journalistic thinking in Azerbaijan was completed with new components such as quality, analytics and investigative journalism. Those who researched the path of our national press history and took the initiative to revive its general picture were also press and literary figures. F.Kocherli, A.Agayev, M.Shahtakhtli, M. B. Mahammadzade and others are of this type.

***Keywords:*** *Azerbaijan, press, national, satire, magazine*

Redaksiya heyətinin üzvü fil.ü.f.d., dos. Məmmədova Elmira Kekeç Fikrət qızı rəyi əsasında çapa məsləhət görülmüşdür.